# "Zümrüd quşu" Tehranda çap olunub




Xalq şairi Nəriman Həsənzadənin "Zümrüd quşu" adlı poemasını bu günlərdə Tehranda görkəmli nəşriyyatçı və jurnalist Hüseyn Şərqi Xalq şairləri mərhum Cabir Novruzun və Məmməd Arazın yazdıqları ön sözlərlə əski əlifbaya çevirmiş və 500 nüsxə tirajla yaymışdır.

Kitabın ilk səhifələri əsərdə bəhs olunan hadisələrə aid ümumiləşmiş məlumatla açılır: "Rusiya səfiri şair Aleksandr Qriboyedovun İranda və İran şahının ən qədim "Kuh-i-Nur" brilyantını Rusiya çarına üzürxahlıq niyyətilə, nüfuzlu bir heyətlə (Fazil Xan Şeyda və vəltəhd) göndərməsi barədə tarixi yaddaş"la açılır.

Maraqlıdır ki, təqdimatlar hər iki - latın və fars əlifbaları ilə təqdim edilir. Bu da təbiidir, çünki kitabın oxucuları həm o Tayda, həm də bu Taydadır.